**Təsdiq edilmişdir:**
**AGF-nin İcra Komitəsinin**
**20 dekabr 2019-cu il tarixli Qərarı ilə**

**AGF-nin Vitse prezidenti Altay Həsənov**

AZƏRBAYCAN GİMNASTİKA FEDERASİYASI • AZERBAIJAN GYMNASTICS FEDERATION • AGF

# "AZƏRBAYCAN GİMNASTİKA FEDERASİYASI" İCTİMAİ BİRLİYİ

# TEXNİKİ REQLAMENT



Kişi idman gimnastikası | Qadın idman gimnastikası | Badii Gimnastika | Batut gimnastikası və tambling | Akrobatika Gimnastikası | Aerobika Gimnastikası

## AGF 2020

**2020-ci ilin 1 yanvar tarixindən qüvvəyə minir**

**MÜNDƏRİCAT**


| | | |
|---|---|---|
| | | **GİRİŞ** |
| | | **ANLAYIŞLAR** |
| **Maddə 1** | | **REQLAMENTİN MƏQSƏDİ VƏ HÜQUQİ QÜVVƏSİ** |
| Maddə | 1.1 | Məqsəd |
| Maddə | 1.2 | Hüquqi qüvvəsi |
| Maddə | 1.3 | Tətbiq edilmə dairəsi |
| Maddə | 1.4 | Normalar, rəhbər prinsiplər və gimnastikanın ayrı-ayrı növləri üzrə qaydalar və MYP |
| **Maddə 2** | | **RƏSMİ AGF YARIŞLARI VƏ YA AGF-NİN KEÇİRDİYİ VƏ YA TANIDIĞI DİGƏR TURNİRLƏR** |
| Maddə | 2.1 | Rəsmi yarışlar |
| Maddə | 2.2 | Azərbaycan Çempionatı və Birincilikləri |
| Maddə | 2.3 | İdman Gimnastikası |
| Maddə | 2.4 | Bədii Gimnastika |
| Maddə | 2.5 | Batut Gimnastikası |
| Maddə | 2.5.1 | Batut Gimnastikası üzrə təhlükəsizlik tələbləri |
| Maddə | 2.6 | Akrobatika Gimnastikası |
| Maddə | 2.6.1 | Gimnastların ölçülərinin götürülməsi |
| Maddə | 2.7 | Aerobika Gimnastikası |
| Maddə | 2.8 | Nümunəvi çıxışlar |
| Maddə | 2.9 | Digər Tədbirlər |
| Maddə | 2.10 | AGF yarışları və digər tədbirlər üçün yerin seçilməsi |
| Maddə | 2.11 | Yarış cədvəli |
| **Maddə 3** | | **AGF TƏRƏFİNDƏN TƏŞKİL OLUNMAYAN YARIŞLAR VƏ DİGƏR TƏDBİRLƏR** |
| Maddə | 3.1 | Şəhər Çempionatları və Birincilikləri |
| Maddə | 3.2 | İKC-lər arasında keçirilən yarışlar |
| Maddə | 3.3 | Beynəlxalq turnir və yarışlar |
| Maddə | 3.4 | Nümunəvi çıxışlar |
| **Maddə 4** | | **YARIŞLARIN TƏŞKİLİ** |
| Maddə | 4.1 | Azərbaycan Çempionatı və Birinciliyində iştirak etmək üçün qeydiyyatdan keçmə qaydası |
| Maddə | 4.2 | Yekun siyahıya dəyişikliklərin edilməsi |
| Maddə | 4.3 | Püşk atma qaydası |
| Maddə | 4.4 | Təşkilatçı |
| Maddə | 4.5 | Təşkilatçı nümayəndələrinin yarış qabağı iclaslarda iştirakı |
| Maddə | 4.6 | Yarışların idarə olunması |
| Maddə. | 4.7 | Təşkilatçı tərəfindən təyin olunmuş əsas əməkdaşlar |
| Maddə | 4.8 | Ümumi Proqram |
| Maddə | 4.9 | Yarış zalı |
| Maddə | 4.10 | Gimnastika alətləri |

| | | |
|---|---|---|
| Maddə | 4.11 | Hakimliyə dair tələblər |
| Maddə | 4.12 | Musiqi |
| Maddə | 4.13 | Xalların hesablanması: xalların qeydə alınması və məlumatın ötürülməsi |
| Maddə | 4.14 | Məşq zalları |
| Maddə | 4.15 | Avadanlığın yoxlanılması (İsinmə) |
| Maddə | 4.16 | Avadanlıq və alətlər |
| Maddə | 4.17 | Xidməti heyət |
| Maddə | 4.18 | Tibbi Xidmətlər |
| Maddə | 4.19 | Kütləvi İnformasiya Vasitələri (KİV) üçün yaradılan şərait |
| Maddə | 4.20 | Yarış meydançasına daxil olma |
| Maddə | 4.21 | Yarış zalı |
| Maddə | 4.22 | Təhlükəsizlik tədbirləri |
| Maddə | 4.23 | Sənədlərin toplanılması |

**Maddə 5** **GİMNASTLAR VƏ GİMNASTLARA NƏZARƏT**

| | | |
|---|---|---|
| Maddə | 5.1 | Yarışlarda əsas iştirak etmə hüquqları və Lisenziya |
| Maddə | 5.2 | İştirakçıların yaşı |
| Maddə | 5.3 | Məşqçilərin gimnastları müşayiət etməsi |
| Maddə | 5.4 | Davranışa aid ümumi qaydalar |
| Maddə | 5.5 | Yarış meydançasına giriş və çıxış |
| Maddə | 5.6 | Məşqçilərin köməyi |
| Maddə | 5.7 | Bütün Gimnastika növlərində yarış geyimi |

**Maddə 6** **ANTİ-DOPİNQ MÜBARİZƏSİ**

**Maddə 7** **HAKİMLƏR VƏ YARIŞLARDA HAKİMLİK**

| | | |
|---|---|---|
| Maddə | 7.1 | Ümumi prinsiplər |
| Maddə | 7.2 | Hakimliyə əsas: BGF-nin müvafiq Gimnastika növləri üzrə Qaydaları |
| Maddə | 7.3 | AGF-nin rəsmi yarışlarında hakimlik etmək hüququnun əldə olunması - Kateqoriyalar |
| Maddə | 7.4 | AGF-nin Hakimlik Kateqoriyasını almaq məqsədilə Təlim və İmtahan |
| Maddə | 7.5 | Kateqoriyanın etibarlılığı |
| Maddə | 7.6 | Milli Məşqçi və Hakimlik Kateqoriyası olan Mütəxəssislərin qeydiyyatı |
| Maddə | 7.7 | AGF-nin rəsmi yarışlarında hakimlər briqadalarının təşkili və onların öhdəlikləri |
| Maddə | 7.7.1 | Baş Hakim |
| Maddə | 7.8 | Hakimlərin Seçilməsi, Təyin olunması, Püşk atma qaydası |
| Maddə | 7.9 | AGF-nin rəsmi yarışlarından əvvəl hakimlərin Təlimatlandırılması |
| Maddə | 7.10 | Hakimlərin davranışı və xüsusi tələblər |
| Maddə | 7.11 | AGF tərəfindən təşkil olunmayan yarışlarda müddəaların hakimliyə uyğunlaşdırılması |
| Maddə | 7.11.1 | Ümumi qeydlər |
| Maddə | 7.11.1.1 | Hakimlər |
| Maddə | 7.11.1.2 | Hakimlər üçün təşkil olunan təlimatlandırıcı iclaslara dair Təlimat |

**Maddə 8** **XALLARIN HESABLANMASI**

Maddə 8.1 Xalların müəyyən olunma üsulları
Maddə 8.2 Yarış nəticələrinin protokolları
Maddə 8.3 Xalların etibarlılığı
Maddə 8.4 Etibarsız nəticə işarələri

**Maddə 9** **PROTOKOL**

Maddə 9.1 Ümumi müşahidələr

**Maddə 10** **MÜKAFATLAR**

Maddə 10.1 Medal və Diplomların dizaynı
Maddə 10.2 Mükafatlandırma Mərasiminə ayrılmış vaxt
Maddə 10.3 Azərbaycan Çempionatları/Birinciliklərinin Mükafatları
Maddə 10.4 Geyim

**Maddə 11** **YARIŞ AVADANLIĞI VƏ KÖMƏKÇİ QURĞULAR**

Maddə 11.1 Köməkçi Qurğular

**Req. 12** **MALİYYƏ ŞƏRTLƏRİ**

Maddə 12.1 AGF-nin Rəsmi Yarışları
Maddə 12.2 Şəhər Çempionatları və Birincilikləri
Maddə 12.3 Dopinq testləri

**Maddə 13** **YEKUN MÜDDƏALAR**

## GİRİŞ

Hazırkı TR-yə aşağıdakı növlər üzrə qaydalar daxildir:

- İdman gimnastikası (kişi və qadın)
- Bədii gimnastika
- Batut gimnastikası
- Akrobatika gimnastikası
- Aerobika gimnastikası

Hazırkı TR AGF-nin Nizamnaməsinə, "Bədən Tərbiyəsi və İdman haqqında Azərbaycan Respublikasının Qanunu"na və digər mövcud qanunvericilik aktlarına, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən hazırlanmışdır və Beynəlxalq Gimnastika Federasiyasının Texniki Reqlamentinə uyğunlaşdırılmışdır. TR-nin hər hansı bir qaydası ilə Nizamnamənin hər hansı bir Maddəsinin mənası arasında ziddiyət yarandıqda, Nizamnamənin Maddəsi üstünlük təşkil edəcək və həmin qaydaya müvafiq dəyişikliklər olunacaqdır. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə hazrıkı Texniki Reqlamentlə fərqli qaydalar müəyyən edilərsə, beynəlxalq müqavilənin qaydaları tətbiq ediləcək.

Hazırkı TR Azərbaycan Respublikasında keçirilən Gimnastika növləri üzrə milli yarışlar və turnirlərə şamil olunur.

Hazırkı Reqlamentdə yarış və turnirlər üçün prioritet ardıcıllıq aşağıdakı qaydada olmalıdır:

- Azərbaycan Çempionatı
- Azərbaycan Birinciliyi
- Şəhər Çempionatı
- Şəhər Birinciliyi
- Regionlararası Kubok
- İKC-in keçirdiyi yarışlar
- Qala-konsertlər, şou və ya nümunəvi çıxışlar
- Açıq yarışlar və digər Tədbirlər

**ANLAYIŞLAR**

Hazırkı Texniki Reqlamentin şərh olunmasında sözlərin qısa yazılışı aşağıdakı qaydada qəbul olunmuşdur. Cədvəlin birinci qrafasındakı sözlər, onların qarşısında ikinci qrafada yerləşən sözlərin mənasını daşıyır:

| | |
|---|---|
| a) **AGF** | "Azərbaycan Gimnastika Federasiyası" İctimai Birliyi |
| **Nizamnamə** | AGF-nin Nizamnaməsi |
| **TR** | AGF-nin texniki tələblərini təyin etmək və bu tələblərə əməl olunması və / və ya yerinə yetirilməsini təmin etmək üçün AGF-nin İcra Komitəsi tərəfindən təsdiq olunmuş və müvafiq icra hakimiyyəti ilə razılaşdırılmış Texniki Reqlament |
| **Ümumi Yığıncaq** | AGF-nin Ümumi Yığıncağı |
| **İK** | AGF-nin İcra Komitəsi |
| **BK** | AGF-nin Baş Katibi |
| **TD** | AGF-nin Texniki Direktoru |
| **GİN** | Müvafiq İcra hakimiyyəti orqanı, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi |
| **AMADA** | Azərbaycan Milli Antidopinq Agentliyi* |
| **BŞGİBİ** | Bakı şəhər Gənclər və İdman Baş İdarəsi |
| **İKC** | Azərbaycan Respublikasının ərazisində qeydiyyatdan keçmiş İdman Klubları / Cəmiyyətləri / Təşkilatları |
| **ADBTİA** | Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası |
| **MYP** | Hər bir gimnastika növü üzrə Baş məşqçilər tərəfindən hər il üzrə tərtib olunan və BK tərəfindən təsdiq olunan Milli Yarışların Proqramı |
| **YD** | Hər bir gimnastika növü üzrə yarışları idarə edən və BK tərəfindən təyin olunan Yarışların Direktoru |
| **BM** | Hazırkı Reqlamentdə qeyd olunmuş altı (6) gimnastika növünün hər biri üzrə yığma komandaların Baş məşqçiləri |
| **BH** | Hazırkı Reqlamentdə qeyd olunmuş altı (6) gimnastika növü üzrə keçirilən müvafiq yarışların Baş Hakimi |

*AGF-nin İcra Komitəsinin 27.12.2021-ci il tarixli qərarı ilə əlavə olunmuşdur.

| | | |
|---|---|---|
| **Hakimlər** | A Hakimləri | Artistizm |
| | E Hakimləri | İcra |
| | D Hakimləri | Çətinlik və Hərəkətərin Quruluşu |
| | CJP | Hakimlər briqadasının sədri |
| | S hakimləri | Sinxron (BAG) |
| | T Hakimləri | Uçuş vaxtı (BAG) |
| | HD Hakimlər | Üfüqi yerdəyişmə (BAG) |

| | |
|---|---|
| **Gimnastika** | "Azərbaycan Gimnastika Federasiyası" İctimai Birliyinin fəaliyyətinə daxil olan idman gimnastikası (kişi və qadın), bədii gimnastika, batut gimnastikası, akrobatika gimnastikası, aerobika gimnastikası üzrə idman növləri |
| **Gimnast** | Yuxarıda "Gimnastika" başlığı altında qeyd olunmuş idman növləri ilə məşğul olan hər hansı bir şəxs |
| **Növ** | Yuxarıda "Gimnastika" başlığı altında müəyyən olunmuş hər hansı bir idman növü və/və ya fəaliyyəti |
| **Kişi İdman Gimnastikası (KİG)** | Müəyyən edilmiş alətlər üzərində yarışlarda nümayiş etdirilən Gimnastika növü |
| **Qadın İdman Gimnastikası (QİG)** | Müəyyən edilmiş alətlər üzərində yarışlarda nümayiş etdirilən Gimnastika növü |
| **Bədii gimnastika (BƏG)** | Müəyyən edilmiş əl alətləri ilə nümayiş etdirilən Gimnastika növü |
| **Batut Gimnastikası (BAG və TAM)**<br>Batut gimnastikası **(BAG)**<br>Tamblinq **(TAM)** | Batut və tamblinq üzərində icra olunan hərəkətlərdən ibarət Gimnastika növü |
| **Akrobatika Gimnastikası (AKG)** | Yarışda cütlük, üçlük və qrup şəklində alətsiz nümayiş etdirilən Gimnastika növü |
| **Aerobika Gimnastikası (AEG)** | Fərdi proqram, qarışıq cütlük, üçlük və qrup tərkibində alətsiz nümayiş etdirilən Gimnastika növü |
| **YTK** | AGF-nin himayəsi altında keçirilən hər hansı bir tədbirin təşkili üçün təyin olunmuş Yerli Təşkilat Komitəsi və ya digər qurum |
| **BGF** | Beynəlxalq Gimnastika Federasiyası |
| **Gimnastika növləri üzrə Qaydalar** | Bu qaydalar aşağıdakı məqsədlərlə Beynəlxalq Gimnastika Federasiyasının müvafiq Texniki Komitələri tərəfindən hazırlanmış və İcra Komitəsi tərəfindən təsdiq olunmuşdur:<br>- çıxışda hər bir elementin və ya elementlər |

kombinasiyasının dəyərinin müəyyən olunması

- çıxış və icrada yol verilən səhvlərə görə çıxılan cərimə xallarının sistemləşdirilməsi
- istər məcburi, istərsə də sərbəst surətdə seçilən çıxışların quruluşuna aid tələblər
- quruluşa aid səhvlərin və müvafiq cərimələrin sistemləşdirilməsi
- nalayiq davranış, səhvlər, Texniki Reqlamentin qaydaları və ya ayrı-ayrı gimnastika növləri üzrə Qaydalarda qeyd olunan hər hansı bir digər müddəaların pozulmasına görə çıxılan cərimə xalları
- Texniki Reqlamentdə ehtiva olunan prinsip və əsas qaydaların gücləndirilməsində göstərişlərin və / və ya təlimatların təmin olunması

## Maddə 1 REQLAMENTİN MƏQSƏDİ VƏ HÜQUQİ QÜVVƏSİ

### Maddə 1.1 MƏQSƏD

Hazırkı Texniki Reqlamentin məqsədi, AGF-nin texniki tələblərinə nəzarət, onların təşkili və işlədilməsi üçün rəsmi vasitənin təmin edilməsi, gimnastikanın bütün sahələrində hərtərəfli inkişafın təmin və təşviq olunmasından ibarətdir.

### Maddə 1.2 HÜQUQİ QÜVVƏSİ

Hazırkı TR Nizamnamə (Maddə 2.3.5) və "Bədən Tərbiyəsi və İdman haqqında Azərbaycan Respublikasının Qanunu"na (Maddə 11.2.5) müvafiq olaraq BGF-nin TR-nə əsasən tərtib edilmişdir. Onun tərtib olunması və yenidən baxılması İK tərəfindən həyata keçirilir. Hər hansı bir dəyişikliyin edilməsi üçün İK üzvlərinin 2/3 səs çoxluğu tələb olunur.

### Maddə 1.3 TƏTBİQ EDİLMƏ DAİRƏSİ

Əgər hazırkı TR-nin müddəalarında başqa cür nəzərdə tutulmayıbsa, hazırkı TR, İKC-ə, müxtəlif qurumlara və Nizamnamədə qeyd olunan digər səlahiyyətli orqanlara şamil edilir.

### Maddə 1.4 NORMALAR, RƏHBƏR PRİNSİPLƏR, GİMNASTİKANIN AYRI-AYRI NÖVLƏRİ ÜZRƏ QAYDALARI VƏ MYP

İKC-dən və YTK-dan AGF-nin yarışlarında iştirakla və / və ya AGF-nin yarışlarının təşkili ilə əlaqədar TR-yə əməl olumnasını təmin etmələri tələb olunur.

BGF-nin Texniki Komitələri tərəfindən işlənib hazırlanmış və BGF-nin İcra Komitəsi tərəfindən qəbul edilmiş gimnastikanın ayrı-ayrı növləri üzrə Qaydaları çıxışların qiymətləndirilməsi, hərəkətlərin kombinasiyası və quruluşu, səhv icra olunmuş hərəkətlərə görə çıxılan xallar, məşqçi, gimnast və hakimlər tərəfindən qayda pozuntularına görə intizam tədbirləri, habelə yarışın təşkili və idarə olunmasına aid təfərrüatları əhatə edir.

MYP müvafiq gimnastika növləri üzrə BM tərəfindən hər bir il üzrə işlənib hazırlanır, BK tərəfindən təsdiq olunur və yarış proqramı ilə bağlı təfərrüatları ehtiva edir.

BGF-nin ayrı-ayrı növlər üzrə qaydalarına və MYP-yə gimnastlar, məşqçilər, hakimlər, həmçinin yarışların rəhbərliyi tərəfindən riayət edilməsi zəruri olduğu üçün hazırkı TR-də onlara istinad edilir.

BGF-nin gimnastikanın ayrı-ayrı növləri üzrə Qaydaları və MYP, TR ilə yanaşı öyrənilməlidir. Hər hansı bir növ üzrə Qaydaların müddəaları və MYP arasında məna ziddiyyəti yaranarsa, TR-nin prinsipləri üstünlük təşkil edəcək.

## Maddə 2 RƏSMİ AGF YARIŞLARI VƏ YA AGF-NİN KEÇİRDİYİ VƏ YA TANIDIĞI DİGƏR TURNİRLƏR

### Maddə 2.1 RƏSMİ YARIŞLAR

Təsnifat mərhələsi, yarış iştirakçıları, hakimlik, təşkilati və digər məsələlərə aid tələblərin təfərrüatları hazırkı TR-də qeyd olunur.

### Maddə 2.2 AZƏRBAYCAN ÇEMPİONATI VƏ BİRİNCİLİKLƏRİ

Nizamnaməyə əsasən, AGF GİN ilə əməkdaşlıq edərək Gimnastika növləri üzrə yarışların təşkili və keçirilməsinə məsul təşkilatdır.

Azərbaycan Çempionatı və Birinciliyi hər bir altı (6) növ üzrə keçirilən AGF-nin rəsmi yarışlarıdır. Çempionat və Birinciliyin keçirilmə müddəti GİN ilə razılaşdırılır. Kişi və Qadın İdman Gimnastikası, Bədii Gimnastika, Batut Gimnastikası, Akrobatika gimnastikası və Aerobika Gimnastikası üzrə Azərbaycan Çempionatları və Birincilikləri ildə 1 (bir) dəfə keçirilir.
Hazırkı TR-nin 5.1-ci Maddəsində qeyd olunan tələblərə və 5.2-ci Maddəsində göstərilən yaş qruplarında yer almış idmançılar müvafiq il üzrə MYP-yə əsasən bu yarışlarda iştirak etmək hüququna malikdir.
Yarış proqramının ümumi sxemi, YTK, BH və YD-nin sıx əməkdaşlığı ilə işlənib hazırlanır və BK tərəfindən təsdiq olunur. Ətraflı yarış və məşq qrafikinin hazırlanması üçün cavabdeh şəxs BH-dir.
Gimnastların gimnastika növlərindən asılı olaraq müxtəlif kateqoriyaların çoxnövçülük / təsnifat / əsas yarışlarda çıxış ardıcıllığı TD tərəfindən keçirilən püşk atma vasitəsilə müəyyən olunur.
Gimnastika növlərindən asılı olaraq final mərhələlərindəki çıxış ardıcıllığı BGF-nin müvafiq qaydalarına əsasən və ya TD tərəfindən keçirilən püşk atma vasitəsilə müəyyən olunur.
İştirkaçıların sayından asılı olaraq finalda iştirak edən gimnastların sayı müvafiq gimnastika növü üzrə Baş məşqçinin BK-ilə razılaşdırılmış qərarı ilə dəyişdirilə bilər.

### Maddə 2.3 İDMAN GİMNASTİKASI

İdman gimnastikası üzrə Azərbaycan Çempionatı və Birincilikləri, həmçinin AGF-nin keçirdiyi digər turnirlərin yarış proqramı müvafiq ilin MYP-sinə uyğun olaraq aşağıdakı formatda təşkil oluna bilər:

| **Kişilər** | **Qadınlar** |
|---|---|
| **Çoxnövçülük**<br>- sərbəst surətdə seçilmiş hərəkətlərdən ibarət altı (6) çıxış (İstisna: ayrı-ayrı alətlər üzrə finalda iştirak etmə hüququ əldə etmək üçün iki (2) dayaqlı tullanma) | **Çoxnövçülük**<br>- sərbəst surətdə seçilmiş hərəkətlərdən ibarət (4) çıxış (İstisna: ayrı-ayrı alətlər üzrə finalda iştirak etmə hüququ əldə etmək üçün (2) dayaqlı tullanma) |
| **Ayrı-ayrı alətlər üzrə final**<br>- hər bir alətdə bir (1) çıxış (istisna: iki (2) dayaqlı tullanma) | **Ayrı-ayrı alətlər üzrə final**<br>- hər bir alətdə bir (1) çıxış (istisna: iki (2) dayaqlı tullanma) |

Alətlər üzərində çıxışların ardıcıllığı aşağıdakı qaydada həyata keçirilir:

| **Kişilər** | **Qadınlar** |
|---|---|
| Sərbəst hərəkətlər | Dayaqlı tullanma |
| Dəstəli at | Müxtəlif hündürlüklü qollar |
| Halqalar | Gimnastika tiri |
| Dayaqlı tullanma | Sərbəst hərəkətlər |
| Paralel qollar | |
| Turnik | |

Yarışların formatından asılı olaraq, BH bu ardıcıllığa TD və BK-nın razılığı ilə dəyişiklik edə bilər.

Sərbəst surətdə seçilmiş element və kombinasiyalardan ibarət hərəkətlərin quruluşu BGF-nin İdman Gimnastikası üzrə Qaydalarının müddəalarına və müvafiq ilin MYP-sinə uyğun olmalıdır.

Dayaqlı tullanma finallarında iştirak etmək üçün iki (2) hərəkət nümayiş etdirmək lazımdır. Təsnifat xalı iki (2) hərəkət üzrə əldə olunan xalın orta rəqəmi əsasında hesablanır.

**Çoxnövçülük** mərhələsinin nəticəsi üçün yalnız 1-ci dayaqlı tullanma hərəkətinə görə verilmiş xal hesaba alınır.

**Çoxnövçülük** yarışları müvafiq alətlər üzrə xalların toplanılması ilə çoxnövçülük üzrə qalibləri müəyyən edir.

Müvafiq ilin MYP-sinə uyğun olaraq **çoxnövçülük** üzrə əsas yarışların ayrı-ayrı alətlər üzrə nəticələrinə əsasən ən yaxşı səkkiz (8) gimnast ayrı-ayrı alətlər üzrə **finallarda** iştirak üçün müəyyən olunur.

Təsnifat mərhələsinin nəticələrinə uyğun olaraq, üç (3) ehtiyat gimnastı təyin olunur. İştirkaçıların sayından asılı olaraq ehtiyat gimnastlarının sayı müvafiq gimnastika növü üzrə BM-nin BK-ilə razılaşdırılmış qərarı ilə dəyişdirilə bilər. İştirak etməyə çağırıldıqda, ehtiyat gimnastı əvəz olunan gimnastın çıxış sırasına uyğun olaraq çıxış edir.

Ayrı-ayrı alətlər üzrə finallar müvafiq ilin MYP-sinə əsasən hər bir alət üzrə qalib gimnastı müəyyən edir. Ən çox xal toplayan gimnast müvafiq alət üzrə qalib elan olunur.

**Maddə 2.4 BƏDİİ GİMNASTİKA**

Bədii gimnastika üzrə Azərbaycan Çempionatı və Birincilikləri, həmçinin AGF-nin keçirdiyi digər turnirlərin yarış proqramı müvafiq ilin MYP-sinə uyğun olaraq aşağıdakı formatda təşkil oluna bilər:

- Fərdi gimnastlar və qrup hərəkətləri komandaları arasında **çoxnövçülükdə** və **komanda hesabında** reytinq siyahısını müəyyən edən **əsas yarışlar**
- Fərdi gimnastların / qrup hərəkətləri komandalarının ayrı-ayrı alətlər üzrə **finalları**

Gimnast / qrup hərəkətləri komandası finalda iştirak etmək hüququ əldə etdiyi hər bir alət / proqram üzrə bir (1) çıxış nümayiş etdirir.

Fərdi gimnastlar və qrupların **finalda** iştirak etməsi üzrə qaydalar müvafiq ilin MYP-sinə əsasən həyata keçirilir.

Gimnastların / qrupların çıxışları müvafiq ilin MYP-sinə əsasən aşağıdakı ardıcıllıqla olmalıdır:

Alətsiz (yalnız kiçik yaş qruplarına aiddir)
İp (böyüklər yaş qrupunda fərdi gimnastlar istisnadır)
Halqa
Top
Gürzlər
Lent

Fərdi gimnastlar adətən 4 çıxış, qrup hərəkətləri komandaları isə 2 çıxış nümayiş etdirir. Çıxışların sayı yaş qruplarından asılı olaraq müvafiq ilin MYP-sinə əsasən tənzimlənir. Təsnifat / çoxnövçülük və ayrı-ayrı alətlər üzrə finalda alətsiz çıxış proqramı, həmçinin ip, halqa, top, gürzlər və lent alətlərinin tam dəstindən müvafiq ilin əvvəlində yaş qruplarından asılı olaraq AGF-nin müəyyən etdiyi MYP-yə əsasən fərdi gimnastlar tərəfindən istifadə oluna bilər.

Hər bir İKC qrup hərəkətlərinin ümumi proqramı üzrə (2 çıxış və 2 final) ən azı 5, ən çoxu isə 6 gimnast qeydiyyatdan keçirə bilər. 6 gimnast qeydiyyatdan keçdikdə, qrup gimnastlarının adları

- proqramın 2 çıxışı üzrə
- proqramın bir çıxışı üzrə və digər çıxışı üçün isə ehtiyat gimnastı kimi

qeyd oluna bilər.

Yaş qrupundan asılı olaraq, hər bir qrup hərəkəti 4, 5 və ya 6 gimnast tərəfindən müvafiq ilin MYP-sinə əsasən icra olunmalıdır.

Əsas yarışlar müvafiq alətlər üzrə xalların toplanılması ilə çoxnövçülük üzrə qalibləri müəyyən edir.

Əsas yarışlar müvafiq ilin MYP-sinə əsasən komandalar hesabında qalibləri müəyyən edir.

Proqrama daxil olmuş alətlər üzrə Təsnifatın nəticələrinə əsasən ən yaxşı səkkiz (8) gimnast / qrup hərəkətləri komandaları ayrı-ayrı alətlər üzrə finallarda iştirak üçün təyin olunur.

**Əsas yarışın** nəticələrinə uyğun olaraq, üç (3) ehtiyat gimnastı / qrup hərəkətləri komandaları təyin olunur. İştirakçıların sayından asılı olaraq, bu say BK-nın razılığı ilə BH tərəfindən dəyişdirilə bilər. İştirak etməyə çağırıldıqda, ehtiyat gimnastı əvəz olunan gimnastın çıxış sırasına uyğun olaraq çıxış edir.

Ayrı-ayrı alətlər üzrə finallar hər bir alət üzrə qalib gimnastı müəyyən edir. Ən çox xal toplayan gimnast müvafiq alət üzrə qalib elan olunur.
Gimnastdan asılı olmayan gözlənilməyən hallar və belə halların Baş hakim tərəfindən təsdiqlənməsi istisna olmaqla, heç bir fərdi gimnast və ya qrup hərəkətləri komandası öz çıxışını təkrar edə bilməz.

**Maddə 2.5 BATUT GİMNASTİKASI**

Batut gimnastikası üzrə Azərbaycan Çempionatı və Birincilikləri, həmçinin AGF-nin keçirdiyi digər turnirlərin yarış proqramı müvafiq ilin MYP-sinə uyğun olaraq kişilər və qadınlar arasında aşağıdakı kateqoriyalarda və formatda təşkil oluna bilər:

- Batut - fərdi və sinxron
- Tamblinq

**Batut Gimnastikası**

- Kişilərin Fərdi Çıxışları
- Qadınların Fərdi Çıxışları
- Kişilərin Sinxron Çıxışları
- Qadınların Sinxron Çıxışları
- Kişilər arasında komanda hesabı
- Qadınlar arasında komanda hesabı

Batut Gimnastikası üzrə yarışlar, **təsnifat** mərhələsində iki çıxışdan və finallarda bir çıxışdan ibarətdir. Hər bir çıxış, on (10) elementdən ibarətdir.

**Təsnifat** üzrə nəticələr fərdi proqramda birinci və ikinci hərəkətə görə verilən yekun xalların toplanması nəticəsində müəyyən olunur. Sinxron çıxışlar üzrə təsnifat birinci və ikinci çıxışın yekun xalının toplanması nəticəsində müəyyən olunur.

Müvafiq ilin MYP-sinə əsasən **komanda hesabında** reytinq siyahısı təsnifat mərhələsinin nəticələrinə uyğun olaraq müəyyən olunur.

Müvafiq ilin MYP-sinə əsasən gimnastlar arasında təsnifat mərhələsində ilk 8-ci yerləri tutmuş gimnastlar, sinxron çıxışlar üzrə ilk 8-ci yerləri tutmuş cütlüklər finallarda iştirak edir. Müəyyən hallarda bu say BK-nın razılığı ilə BH tərəfindən dəyişdirilə bilər.

Müvafiq ilin MYP-sinə əsasən yaş qruplarından asılı olaraq final mərhələləri keçirilmədikdə, qaliblər təsnifatın nəticələrinə əsasən müəyyən olunur.

**Tamblinq**

- Kişilərin Fərdi Çıxışları
- Qadınların Fərdi Çıxışları
- Kişilər arasında komanda hesabı
- Qadınlar arasında komanda hesabı

Tamblinq üzrə yarışlar, Təsnifat Mərhələsində iki çıxışdan, fərdi Finallarda iki çıxışdan ibarətdir. Hər bir çıxış səkkiz (8) elementdən ibarətdir.

Təsnifat mərhələsi müvafiq ilin MYP-sinə əsasən finalda iştirak etmək hüququnun əldə olunması üçün əsasdır.

Təsnifat üzrə nəticələr birinci və ikinci hərəkətə görə verilən yekun xalların toplanması nəticəsində müəyyən olunur.

Komanda hesabında reytinq siyahısı təsnifat mərhələsinin nəticələrinə uyğun olaraq müəyyən olunur.

Təsnifat mərhələsində ilk 8-ci yerləri tutmuş gimnastlar finalda iştirak edir.

Müvafiq ilin MYP-sinə əsasən yaş qruplarından asılı olaraq final mərhələləri keçirilmədikdə, qaliblər təsnifatın nəticələrinə əsasən müəyyən olunur.

**Maddə 2.5.1 BATUT GİMNASTİKASI ÜZRƏ TƏHLÜKƏSİZLİK TƏLƏBLƏRİ**

**Batut**

Batut Gimnastikası üzrə yarışın keçirilməsi nəzərdə tutulan zalın daxili hündürlüyü ən azı səkkiz (8) metr olmalıdır.

BGF-nin Normalarına müvafiq olaraq, təhlükəsizlik matları, batutun yerləşdiyi yerin ətraflarına (yanlarına) döşənməlidir.

Batutun qurtaracaqlarında enmə matları ilə təhlükəsizlik platformalarından istifadə olunmalıdır. Onların ölçüləri, BGF-nın normalarına müvafiq olmalıdır.

BGF-nin Normalarına müvafiq olaraq, təhlükəsizlik matları, təhlükəsizlik platformalarının arxasındakı döşəməni örtməlidir.

Tərəflər (yanlar) = batutun uzun tərəfləri
Qurtaracaqlar = batutun qısa tərəfləri

Sinxron çıxışların nümayişi zamanı, batutlar parallel və düz olmalıdır. Çərçivələrin xarici kənarlarından ölçülən aralarındakı məsafə iki (2) metr olmalıdır.

Yarışın təşkilatçısı, isinmə vaxtı və yarış zamanı ən azı iki (2) təcrübəli sığortalayan şəxs təyin etməlidir.

BH sığortalayan şəxslərə nəzarət etməyə görə məsuliyyət daşıyır.

Gimnastın özünün bir (1) və ya iki (2) sığortalayan şəxsi ola bilər (məşqçi üstə gəl köməkçi). Belə olan halda onlar, təşkilatçı tərəfindən təmin olunmuş bir (1) və ya iki (2) sığortalayan şəxsi əvəz edirlər.

Sığortalayıcı mat, yalnız gimnastın öz sığortalayan şəxsi tərəfindən istifadə oluna bilər. Bu matın ölçüləri, BGF-nin Normalarına müvafiq olmalıdır.

Gimnastlar kənardan heç bir kömək olmadan öz çıxışlarını icra etməlidirlər. Sığortalayan şəxsin etdiyi hər hansı bir köməyin zəruri olub-olmamasına dair qərar BH tərəfindən verilir.

**Tamblinq**

Zalın daxili hündürlüyü, ən azı beş (5) metr olmalıdır.

Gimnastı bir sığortalayan şəxs ola bilər (məşqçi).

**Maddə 2.6 AKROBATİKA GİMNASTİKASI**

Akrobatika gimnastikası üzrə Azərbaycan Çempionatı və Birincilikləri, həmçinin AGF-nin keçirdiyi digər turnirlərin yarış proqramı müvafiq ilin MYP-sinə uyğun olaraq aşağıdakı kateqoriyalarda və formatda təşkil oluna bilər:

- Kişi cütlükləri
- Qadın cütlükləri
- Qarışıq cütlüklər
- Qadınlardan ibarət qruplar (üçlük)
- Kişilərdən ibarət qruplar (4 gimnast)

Yarışlar 3 çıxışdan ibarətdir. Bütün üç (3) – 1 balans, 1 temp və yaş qruplarından asılı olaraq müvafiq ilin MYP-sinə əsasən 3-cü çıxış (qarışıq hərəkətlər, balans və ya temp hərəkətləri) nümayiş etdirildikdən sonra, hər bir cütlük və qrupun çoxnövçülükdə reytinq siyahısı müəyyən olunur.

Yarışlarda nümayiş etdirilən 3 hərəkətdən sonra xallar toplanır, hər bir kateqoriya üzrə ən yüksək nəticə göstərmiş cütlük və ya qruplar çoxnövçülükdə qalib elan olunur.

Komanda hesabı yarışlarda iştirak hüququ müvafiq ilin MYP-sinə uyğun olaraq həyata keçirilir.

Komanda yarışlarının qalibi müvafiq ilin MYP-sinə əsasən müəyyən olunur.

QEYD: İKC-lər yarışlara qeydiyyatdan keçərkən, müvafiq ilin MYP-sinə əsasən hansı cütlük və qrupların komanda hesabı yarışlarda (idmançıların adlarını göstərməklə) iştirak edəcəklərini qeyd etməlidirlər.

Cütlük və ya qrupdan asılı olmayan gözlənilməyən hallar və belə halların BH tərəfindən təsdiqlənməsi istisna olmaqla, heç bir cütlük və ya qrup öz çıxışını təkrar edə bilməz.

**Maddə 2.6.1 GİMNASTLARIN ÖLÇÜLƏRİNİN GÖTÜRÜLMƏSİ**

Bütün gimnastların ölçüləri BH-nın təyin etdiyi məsul şəxs tərəfindən müəyyən olunmuş vaxtda və yerdə götürülməlidir.

İdmançılar aşağıdakı hallarda yarışda iştirak etmək hüququndan məhrum olunur:

- idmançı müəyyən olunmuş vaxtda ölçülərinin götürülməsi üçün gəlmədikdə
- ölçülərinin götürülməsinə maneçilik törətdikdə və ya ölçülərin götürülməsinə dair göstərişlərə əməl etmədikdə
- aldatmaqla və ya hər hansı bir digər yolla özünə daha uyğun ölçülər əldə etməyə çalışdıqda.

Yarışda iştirak etmək hüququndan məhrum edilmiş gimnast digər idmançı ilə əvəz oluna bilməz.

BH BK-nın razılığı ilə yarışdan kənarlaşdırmaq haqqında qərar verir.

**Maddə 2.7 AEROBİKA GİMNASTİKASI**

Aerobika gimnastikası üzrə Azərbaycan Çempionatı və Birincilikləri, həmçinin AGF-nin keçirdiyi digər turnirlərin yarış proqramı müvafiq ilin MYP-sinə uyğun olaraq aşağıdakı kateqoriyalarda və formatda təşkil oluna bilər:

- Fərdi / kişilər
- Fərdi / qadınlar
- Qarışıq cütlüklər
- Üçlük (iştirakçıların cinsi seçimdən asılıdır)
- Qrup (5 nəfərdən ibarət olur, iştirakçıların cinsi seçimdən asılıdır)
- Aero-dans (yaş qruplarından asılı olaraq müvafiq ilin MYP-sinə əsasən 6 və ya 8 nəfər – iştirakçıların cinsi seçimdən asılıdır)

Yarışlar hər bir çıxış proqramı üzrə müvafiq ilin MYP-sinə əsasən **təsnifat və final mərhələsindən** ibarətdir. Yarış iştirakçıları mərhələlərin hər birində bir çıxış nümayiş etdirirlər.

Gimnastdan / cütlükdən / qrupdan / aero-dans-dan asılı olmayan gözlənilməyən hallar və belə halların BH tərəfindən təsdiqlənməsi istisna olmaqla, heç bir fərdi gimnast və ya qrup hərəkətləri komandası öz çıxışını təkrar edə bilməz.

**Maddə 2.8 NÜMUNƏVİ ÇIXIŞLAR**

Təşkilat Komitəsi ilə razılaşdırılaraq, AGF Azərbaycan Çempionatları və Birincilikləri, Açıq Azərbaycan Çempionatları və beynəlxalq yarışlardan sonra, habelə müxtəlif bayramlara və əlamətdar günlərə həsr olunmuş şou proqramlar, Qala-konsertlər və nümunəvi çıxışlar təşkil edə bilər.

AGF-nin təşkil etdiyi Qala-konsertlər və ya şou proqramlarda yüksək səviyyəli çıxışların təmin olunması məqsədilə gimnastlar öz yarış proqramını və ya xüsusilə Qala-konsert / şou proqram üçün hazırladıqları nümunəvi çıxışları Qala-konsert / şou proqramın rəhbəri ilə razılaşdırılmış çıxışı nümayiş etdirə bilərlər.

Hər bir şou proqramın / Qala-konsertin proqramı BK tərəfindən təyin olunmuş şəxs tərəfindən hazırlanmalı və BK tərəfindən təsdiq olunmalıdır.

**Maddə 2.9 DİGƏR TƏDBİRLƏR**

BK-nın qərarı və GİN-in razılığı ilə hər bir gimnastika növü üzrə Açıq Azərbaycan Çempionatları və Birincilikləri, beynəlxalq turnirlər və / və ya yarışlar keçirilə bilər.

**Maddə 2.10 AGF YARIŞLARI VƏ DİGƏR TƏDBİRLƏR ÜÇÜN YERİN SEÇİLMƏSİ**

AGF-nin rəsmi yarışları və digər tədbirləri, GİN ilə razılaşdırılaraq BK-nın qərar verdiyi yerlərdə keçirilir.

**Maddə 2.11 YARIŞ CƏDVƏLİ**

Marketinq planının bir hissəsi olaraq, Azərbaycanda əhalinin bu vaxta öyrəşməsi məqsədilə gimnastika növləri üzrə bütün yarışlar mümkün qədər saat 12:00-dan tez başlamamalı və 22.00-dan gec sona çatmamalıdır.

**Maddə 3 AGF TƏRƏFİNDƏN TƏŞKİL OLUNMAYAN YARIŞLAR VƏ DİGƏR TƏDBİRLƏR**

**Maddə 3.1 ŞƏHƏR ÇEMPİONATLARI VƏ BİRİNCİLİKLƏRİ**

Bütün gimnastika növləri üzrə şəhər çempionatları və birinciliklərinin təşkili müvafiq Gənclər və İdman İdarələrinin səlahiyyətindədir.

Proqram və işin aparılma qaydası bu TR-yə əsaslanmalıdır.
Bu şərti nəzərə almaqla, təşkilatçılar müvafiq şəhərlərdə bütün gimnastika növlərinin inkişafına xidmət edə biləcək digər təfərrüatları AGF-nin razılığı ilə müəyyən edə bilərlər. Buraya yarış proqramı və yarışın idarə olunma sistemi, cəlb olunmuş gimnastların sayı kimi məsələlər aiddir. Bu yarışların keçirilmə tarixi AGF tərəfindən təsdiq olunmalıdır.

**Maddə 3.2 İKC-LƏR ARASINDA KEÇİRİLƏN YARIŞLAR**

Hər bir İKC digər İKC-lər ilə yarışlar təşkil etmək hüququna malikdir. Dostluq münasibətlərinin inkişaf olunmasına imkan yaradan yarışların keçirilməsi bütünlüklə hər bir cəmiyyətin səlahiyyətindədir. Yarışların eyni qaydada təşkil olunması

məqsədilə, bu tədbirin şərtləri yazılı şəkildə qeyd olunmalıdır. Hazırkı TR-də göstərilən aşağıdakı məqamlara diqqət yetirilməlidir:

- yarışın keçirilmə vaxtı və yeri
- yarışın mahiyyəti
- proqram
- qalibin müəyyən olunması
- yarışların protokolu və mükafatlandırma mərasimləri

İKC-lər sözügedən məqamlara ciddi surətdə əməl etməlidirlər. Lazım olduqda, hakimlərin sayına (Maddə 7) təşkilatçılar tərəfindən dəyişiklik oluna bilər.
Hazırkı TR əsaslanaraq, proqram və yarışın keçirilmə qaydası AGF-lə razılaşdırılmalıdır. Bütün bu məsələlər və digər təşkilati və texniki təfərrüatlar yazılı şəkildə iştirakçılara bildirilməlidir.
AGF-nin razılığı ilə həmin yarışın xüsusi ehtiyaclarına uyğunlaşmaq məqsədilə dəyişikliklər edilməsinə icazə verilir.

### Maddə 3.3 BEYNƏLXALQ TURNİR VƏ YARIŞLAR

İKC-lər arasında açıq turnirlərə əlavə olaraq, Azərbaycan Respublikasının ərazisində təşkil olunan gimnastika növləri üzrə bütün beynəlxalq turnir və yarışlar hazırkı TR nəzərə alınmaqla, AGF-nin razılığı ilə keçirilə bilər.

Hazırkı TR-nin müddəaları nəzərə alınmaqla, yarışların proqramı, formatı, keçirilmə qaydası, maliyyə şərtləri təşkilatçı idman klubu tərəfindən AGF-lə razılaşdırılmalıdır.

Bu cür turnirlərin keçirilməsinə ən azı iki ay qalmış AGF-dən razılıq alınmalıdır.

### Maddə 3.4 NÜMUNƏVİ ÇIXIŞLAR

TR-də əvvəldə bəhs edilən yarış və tədbirlərdən əlavə, bütün gimnastika növlərinin inkişaf etdirilməsi məqsədilə AGF və ya İKC-lər nümunəvi çıxışlar, şoular və Qala-konsertlər təşkil etmək hüququna malikdirlər.

Bunların təşkili, həmin tədbirin keçirilməsini təklif edən İKC-nin və ya lazım olduqda, AGF tərəfindən təyin olunmuş İKC-nin öhdəsinə düşür. Bu cür tədbirlərə bütün gimnastika növlərinin təmsilçiləri cəlb oluna bilər. Nümayiş etdirilən hərəkətlər hakimlər tərəfindən qiymətləndirilmir.
İKC-lər nümunəvi çıxışlar, şou və Qala-konsertlərin keçirilməsi üçün AGF-dən razılıq almalıdırlar.
Bu cür tədbirlərin keçirilməsinə ən azı iki ay qalmış AGF-dən razılıq alınmalıdır.
AGF-dən razılıq almaq üçün tədbirin proqramı və cədvəli, istifadə olunacaq alətlər, iştirakçıların sayı və cəlb olunmuş İKC-lər və maliyyə şərtləri haqda məlumatlar təqdim olunmalıdır.
İKC-lər yalnız öz gimnastlarının iştirak etdiyi və qanunvericiliyə zidd olmayan müvafiq İKC-nin inkişafı və təşviqatı məqsədilə keçirdikləri tədbirlər haqda AGF-yə məlumat təqdim etməlidirlər.

## Maddə 4 YARIŞLARIN TƏŞKİLİ

### Maddə 4.1 AZƏRBAYCAN ÇEMPİONATI VƏ BİRİNCİLİYİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN QEYDİYYATDAN KEÇMƏ QAYDASI

Qeydiyyatdan keçmə AGF-nin rəsmi saytında dərc edilmiş blankların / formaların doldurulması ilə həyata keçirilir.

Yarışlara ilkin qeydiyyat forması (elektron şəkildə doldurulmalıdır) müfaviq turnirə bir ay qalmış, son qeydiyyat forması (adların qeyd olunması) isə bir həftə qalmış YTK-ya elektron poçt vasitəsilə göndərilməli və ya çap olunmuş variantda təqdim olunmalıdır. YTK musiqilərin (musiqi müşayiəti olan növlərə aiddir) və musiqi formasının (lazım olduqda) təqdim olunması və yarışlarda iştirak edən hər bir gimnastın foto şəkillərinin çəkilməsi üçün müəyyən bir gün(lər) təyin edir. Yarışlarda iştirak etmək istəyən hər bir İKC göstərilən tarixlərdə tələb olunan düzgün doldurulmuş sənədləri YTK-ya təqdim etməli və foto şəkillərinin təqdim olunması üçün müəyyən olunmuş məkanda və vaxtda olmalıdır. Əks təqdirdə, bu klublar və cəmiyyətlər sənədlərin gecikdirilməsinə görə YTK-ya yüz (100) manat məbləğində cərimə ödəməlidirlər. Cərimə ödənilmədiyi halda, onlar yarışlara buraxılmayacaqlar.

İKC-lər gimnastların qeydiyyatı ilə birlikdə məşqçi və hakimlərin də qeydiyyatını təqdim etməlidirlər.

### Maddə 4.2 YEKUN SİYAHIYA DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ

Son qeydiyyat formasının təqdim olunma müddəti başa çatdıqdan sonra, iştirakçıların siyahısına heç bir gimnast əlavə oluna bilməz. Üzrlü səbəb olduqda, gimnast iştirakçı siyahısından çıxarıla bilər.

İstisna hallarda, müvafiq gimnastika növü üzrə BM və BK müəyyən dəyişikliyi qəbul edə bilər.

### Maddə 4.3 PÜŞK ATMA QAYDASI

Yarışdan əvvəl püşk atma aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

1. Püşkatma İlkin Qeydiyyatdan keçmə tarixindən sonrakı bir həftə ərzində TD tərəfindən keçirilir.
2. Püşkün çəkilməsi AGF-nin təyin etdiyi şəxs tərəfindən əl və ya kompyuter vasitəsilə həyata keçirilir.
3. Püşk, gimnast və ya hər bir kateqoriya üzrə iştirakçıların çıxış etmə ardıcıllığını müəyyən edir.
4. Gimnastların sağlamlığı və təhlükəsizliyi naminə BGF-nin qəbul etdiyi kimi, bir neçə finalda iştirak edən idmançılara yenidən çıxış etməzdən əvvəl fiziki hazırlığın bərpası üçün 10 dəqiqə vaxt lazımdır. Gimnastika növündən asılı olaraq, təsnifat / çoxnövçülük / əsas yarış və final mərhələsində püşkatma bu prinsipə əsasən nizamlanacaqdır.
   Lazım olduqda bu uyğunlaşdırma BH tərəfindən həyata keçirilir və yeni çıxış ardıcıllığı siyahısı YTK tərəfindən tərtib olunur.

### Maddə 4.4 TƏŞKİLATÇI

AGF tərəfindən təyin edilmiş YTK, Azərbaycan Çempionatı və Birinciliyinin təşkilinə cavabdehdir.

YTK, tələblərə uyğun olan zalda Çempionatın qüsursuz keçirilməsini təmin etməyi, yarışın hazırkı TR-nin müddəalarına müvafiq olaraq təşkilini öz üzərinə götürür.

**Maddə 4.5 TƏŞKİLATÇI NÜMAYƏNDƏLƏRİNİN YARIŞ QABAĞI İCLASLARDA İŞTİRAKI**

AGF-nin rəsmi yarışlarının təşkilatçıları, BK-nın tələbi ilə AGF tərəfindən keçirilən yarış qabağı iclaslara öz nümayəndələrini göndərməlidirlər. Eyni zamanda, BH-nin tələbi ilə onlar, məşqçi və hakimlər üçün nəzərdə tutulmuş iclaslarda da öz nümayəndələrinin iştirakını təmin etməlidirlər.

**Maddə 4.6 YARIŞLARIN İDARƏ OLUNMASI**

Yarışlar YD tərəfindən idarə olunur.

Yarışların rəvan keçməsinə dair bütün lazımı qərarlar YD, həmçinin BH tərəfindən qəbul olunur. YTK və YD ilə əməkdaşlıq edərək, BH hakimlərin işinə nəzarət edir və onları təlimatlandırır.

**Maddə 4.7 TƏŞKİLATÇI TƏRƏFİNDƏN TƏYİN OLUNMUŞ ƏSAS ƏMƏKDAŞLAR**

BK-nın razılığı ilə təşkilatçı tərəfindən aşağıda göstərilən əsas əməkdaşlar təyin olunur.

***a) YD***

Bu şəxs yarışın keçiriləcəyi yerdə çalışmaq üçün cəlb edilmiş bütün heyəti idarə edir və onların işinə nəzarət edir. O, gimnastika üzrə müvafiq texniki biliklərə sahib olmalıdır.

***b) Təchizat Xidmətinin Rəhbəri***

Bu əməkdaş BH və YD ilə bərabər fəaliyyət göstərir. Təchizat xidmətinin rəhbəri yarış yerində alətlərin quraşdırılması, lazımi avadanlıqların təchizatı və quraşdırılması, zalın tərtibatı və mühafizəsi, bütövlükdə yarışların keçirilməsi ilə bağlı digər inzibati işlərin həyata keçirilməsinə cavabdehdir.

***b) Xalların-hesablanması Xidmətinin Rəhbəri***

Rəsmi AGF yarışlarında xalların hesablanması öncədən federasiya ilə imzalanmış müqavilə əsasında hesablama şirkəti tərəfindən həyata keçirilir. İdman yarışlarının təşkili zamanı xalların hesablanması və hakimlik, xronometraj üzrə elektron sistemin işlənib hazırlanması və icrası sahəsində xidmət göstərən bu şirkətin təyin və AGF-nin təsdiq etdiyi nümayəndə yarışlar zamanı Xal-hesablama Xidmətinin Rəhbəri vəzifəsini yerinə yetirir. Bu əməkdaş YD və BH-lə birbaşa əməkdaşlıq edərək fəaliyyət göstərir. O, xal hesablama sisteminə və xalların bütün maraqlı tərəflərə təqdim olunmasına cavabdehdir.

**Maddə 4.8 ÜMUMİ PROQRAM**

Yarış Proqramı təfərrüatı ilə YD, müvafiq yığma komandanın BM-si və YTK ilə sıx əməkdaşlıq şəklində işlənib hazırlanır və BK tərəfindən təsdiqlənir. Yarışın və məşqlərin ətraflı qrafikinin hazırlanmasına dair məsuliyyəti BH daşıyır.

**Maddə 4.9 YARIŞ ZALI**

Yarış zalı Azərbaycan Çempionatının / Birinciliyinin nüfuzuna xələl gətirməməlidir.

Əsas etibarilə, tamaşaçılar üçün nəzərdə tutulmuş oturacaqların minimal sayı 50-dən az olmamalıdır.

Zaldakı temperatur BGF-nin hərarətin rütubətə nisbətdə müəyyən etdiyi 39 bal və ya ondan aşağı olmalıdır.

Yarış zalının birbaşa yaxınlığında və ya ona bitişik gimnastların isinməsi üçün təchiz edilmiş müvafiq zal / meydança olmalıdır. Bu isinmə meydançası yalnız yarış iştirakçıları üçün nəzərdə tutulur.

Yarış meydançası və isinmə zalında hər hansı bir içki (çay, qəhvə və s.) içmə və ya qida qəbul etmə nəticəsində avadanlığa və ya döşəməyə hər hansı bir ziyan vurulduqda, vurulmuş ziyanın dəyərinin müvafiq İKC nümayəndəsi tərəfindən ödənilməsi tələb olunacaq.

**İdman Gimnastikasında** lazımi təhlükəsizliyin təmin olunması üçün alətlər arasında məsafənin olması çox vacibdir.

**Bədii Gimnastikada** zalın hündürlüyü ən azı səkkiz (8) metr olmalıdır.
İşçi səthin ölçüsü 13m x 13m (xətt xaricindən) olması zəruridir, xalça sahəsinin kənarı boyunca ən azı 50sm eni olan bir təhlükəsizlik sahəsi (həmçinin xalça ilə örtülmüş) təmin edilməlidir.
Xalça BGF-nin standartlarına uyğun olmalıdır. Təhlükəsizliyi təmin etmək məqsədilə xalça sahəsi ilə tamaşaçı auditoriyası arasındakı məsafə ən azı iki (2) metr olmaldır.
Yarış zallarının, habelə xalçaların sayı və yerləşdirilməsi YTK tərəfindən müəyyən olunur.

**Batut Gimnastikasında** yarış zalının hündürlüyü ən azı səkkiz (8) metr olmalıdır. Zal, eyni istehsalçıya aid və eyni model olan batut, tamblinq cığırı və müvafiq matlarla təchiz olunmalıdır. İstisna hallarda Texniki Ekspertin BK ilə razılaşdırılmış icazəsi ilə müxtəlif istehsalçıya aid modellərdən istifadə oluna bilər.

**Akrobatika Gimnastikasında** zalın hündürlüyü, ən azı, səkkiz (8) metr olmalıdır.
Zal ən azı aşağıdakılarla təchiz edilməlidir:
- 12 x 12 m kvadrat işçi sahəsi (məhdudlaşdırıcı xətlər daxil olmaqla) olan elastik alt-konstruksiyalı gimnastika xalçası (İdman Gimnastikasında istifadə olunan xalça ilə eynidir)
- Kişi Qrupunun balans və qarışıq hərəkətləri üçün qalınlığı ən azı 20 sm, ən çoxu isə 50 sm olan yerə enmə matları.

**Aerobika Gimnastikasında** yarış döşəməsi 12 x 12 m ölçüsündə olmalıdır.
Yarış döşəməsi BGF-nin alətlər üzrə normalarına uyğun olmalıdır.

**Maddə 4.10. GİMNASTİKA ALƏTLƏRİ**

QİG-də sərbəst hərəkətlərdə, BƏG-də, AKG və AEG-də musiqi müşayiətinin təmin olunması məqsədilə musiqini səsləndirən elektron cihazlar, səs gücləndiriciləri, desibel hesablayıcı cihaz və digər lazımi qurğular daxil olmaqla, müəyyən olunmuş standartlara cavab verən qurğular quraşdırılmalı və işlək vəziyyətdə saxlanmalıdır.

İdman gimnastikasında halqaların, turnik və müxtəlif hündürlüklü qolların yüksəkliyi BH və müvafiq yığma komandanın BM-sinə müraciət etdikdən sonra dəyişdirilə bilər.

Bütün yaş qruplarında çıxış edən gimnastların istifadə etdiyi alətlərin ölçüsü AGF ilə razılaşdırılmalıdır.

Lazım olduqda, BƏG-də gimnastlar tərəfindən istifadə olunan alətlərin yoxlanılması üçün nəzarət sahəsi təmin edilməlidir. Bu cür yoxlama həyata keçirmək üçün ixtisaslı heyət, həmçinin BGF tərəfindən verilmiş sertifikatı olan alətlərə nəzarət masası təmin olunmalıdır.

**Maddə 4.11 HAKİMLİYƏ DAİR TƏLƏBLƏR**

BH hakimlik prosesinə cəlb olunmuş bütün şəxslərin hakimlər üçün nəzərdə tutulmuş masalar arxasında əyləşmələrini təmin etmək məqsədilə lazımi tədbirlər görməlidir.

**Maddə 4.12 MUSİQİ**

Səs tezliyi (musiqi və anonslar) izosonik dalğalarında 1.000 Hertz (Hz) ölçüdə 80 dB (desibel) tezliyindən yüksək olmamalıdır. Yoxlama/nəzarət yarışların texniki təchizat xidmətinin işçiləri, həmçinin lazım olarsa YTK-nın tibbi xidməti tərəfindən həyata keçirilməlidir.

Səs səviyyəsinin yuxarıda qeyd olunan məhdudiyyətlər daxilində saxlanması səsə cavabdeh olan texniki işçinin öhdəliyindədir. O, yarış iştirakçıları və ətrafdakı digər şəxslərin hər hansı xahişi və müdaxiləsinə imkan verməməlidir.

Musiqinin təqdim olunması BGF-nin qaydalarına əsasən həyata keçirilir. Musiqi yarışların son qeydiyyat tarixinədək yarış iştirakçıları tərəfindən YTK-ya CD (kompakt-disk) və ya digər yaddaş cihazları vasitəsilə təqdim olunmalıdır. Bu tələbin yerinə yetirilməsinə görə məsuliyyət onların məşqçilərinin üzərinə düşür. Çıxışların musiqi ilə müşayiət olunan gimnastika növlərində musiqi hər bir gimnast və ya kateqoriya üçün ayrı-ayrı elektron cihazlarda təqdim olunmalıdır. Musiqi təqdim olunarkən, gimnast və onun məşqçisi musiqinin məhz bu və ya digər çıxışa aid olduğunu YTK tərəfindən düzgün qeydə alınmasına əmin olmalıdır. Musiqini vaxtında təqdim etməyən yarış iştirakçıları yarışa buraxılmır və yarış zamanı musiqinin müvafiq çıxışa aid olmadığı aşkar olunduqda, idmançı məsuliyyətsiz yanaşma nəticəsində yarışın gedişatına maneçilik törətdiyinə görə yarışdan kənarlaşdırılır.

**Maddə 4.13 XALLARIN HESABLANMASI: XALLARIN QEYDƏ ALINMASI VƏ MƏLUMATIN ÖTÜRÜLMƏSİ**

Hər bir hakimin verdiyi xalların qeydə alınması və BH-yə ötürülməsi təmin olunmalıdır.

Hər bir çıxış üçün hər bir hakimlər briqadasının toplam xalları, cərimələr (xaldan çıxılmalar), çıxış üzrə yekun xal və idmançının tutduğu yer bütün gimnastika növləri üçün BGF-nin qaydalarına əsasən həyata keçirilir:

A-xalı (Artistizm), E-xalı (İcra), D-xalı (Çətinlik / Quruluş), S-xalı (Sinxron), Uçuş zamanı (T), Üfüqi yerdəyişmə (HD)

Ehtiyac yarandığı təqdirdə, BH-nin təlimatına uyğun olaraq hakimlər briqadasında hakimlərin sayına dəyişiklik edilə bilər.

Hər hansı bir yarış mərhələsində xallar bərabər olduqda, BGF-nin müəyyən qaydaları tətbiq olunur.

**Maddə 4.14 MƏŞQ ZALLARI**

Yarış-qabağı məşqlər üçün məşq zalları təmin edilməlidir.

BK ilə YTK-nın birlikdə qəbul etdikləri qərara əsasən, məşq zalları yarışın başlamasından ən azı bir (1) gün əvvəl gimnastların ixtiyarında olmalıdır.

YTK məşq zallarından istifadəyə lazımi nəzarətin həyata keçrilməsini və məşq sessiyası zamanı yalnız iştirakçılar və onların məşqçilərinin həmin məşq zallarına buraxılmasını təmin etməlidir.

Məşq zalında hər hansı bir içki (çay, qəhvə və s.) içmə və ya qida qəbul etmə nəticəsində avadanlığa və ya döşəməyə hər hansı bir ziyan vurulduqda, vurulmuş ziyanın dəyərinin müvafiq İKC nümayəndəsi tərəfindən ödənilməsi tələb olunacaq.

Məşq zalında YD-dan razılıq almadan hər hansı bir məqsədlə video çəkiliş aparmaq qadağındır.

Məşq cədvəlləri BH, YD və BK tərəfindən təsdiq olunmalıdır.

**Maddə 4.15 AVADANLIĞIN YOXLANILMASI (İSİNMƏ)**

İsinmə BGF-nin qaydalarına uyğun olaraq həyata keçirilməlidir. Ehtiyac yaranarsa, bu qaydalara BH və YD tərəfindən yarışların formatına uyğun olaraq dəyişiklik edilə bilər.

**Maddə 4.16 AVADANLIQ VƏ ALƏTLƏR**

Yarışlarda istifadə olunan avadanlıq və gimnastika alətləri BGF tərəfindən verilmiş sertifikata malik olmalıdır.

**Maddə 4.17 XİDMƏTİ HEYƏT**

Yarışın effektiv keçməsini təmin etmək məqsədilə, yarışı idarə edən şəxslərin xidmətində kifayət sayda köməkçilər ola bilər.
Buraya aşağıdakılar daxildir:
- fərdi və hər bir kateqoriyada çıxış edən gimnastları xalçaya ötürən şəxslər
- hər bir hakimlər briqadası üçün bir katib və hakimlər üçün quraşdırılmış avadanlığa nəzarət edən bir texnik
- hesablama avadanlığı üçün bir texnik
- alətlərin quraşdırılmasına cavabdeh olan və hər dəfə lazım olduqda müdaxilə etməsi mümkün olan komanda
- rəsmi mərasimlər üçün podiumu quraşdıran və bu mərasimlərin keçirilməsinə köməklik göstərən komanda
- idmançıların, məşqçilərin və hakimlərin lisenziyalarını yoxlayan şəxs
- idmançıların geyimlərində reklam və təşviqata nəzarət edən şəxs
- gimnastların zala daxil olmalarından əvvəl hazırlaşmalarına nəzarət edən şəxslər
- tamaşaçılara nəzarət edən mühafizəçilər
- alətləri / avadanlıqları yoxlayan şəxs
- lazım olduqda, xətt hakimləri və vaxt hakimləri
- Fərdi və hər bir kateqoriyada çıxış edən gimnastların yarış zalına daxil olmasını nizamlayan şəxs
- Akrobatika gimnastikasında idmançıların ölçülərinin götürülməsi üçün antropometrist və ya fizioterapevt
- digər lazımi heyət.

Bütün yuxarıda qeyd olunan şəxslər vəzifələrini yerinə yetirmək üçün yaxşı təlim keçməli və onlara tamamilə etibar olunmalıdır.

**Maddə 4.18 TİBBİ XİDMƏTLƏR**

Lazımi qaydada təchiz olunmuş tibbi otaq və həkim heyətinin olması vacibdir.
Yarış məkanında (yarış, məşq və isinmə meydançaları daxil olmaqla) effektiv təcili ilkin tibbi yardım xidməti təşkil edilməlidir.
Yarış zamanı hər hansı bir xəstəlik və ya zədələnmə haqda, məşqçi və ya işçi qrupun rəhbəri tərəfindən dərhal həkim heyətinə xəbər verilməlidir.
Həmin zədə almış və ya xəstələnmiş şəxs (yaxud şəxslər) həkim müayinəsindən keçməli və zədə (xəstəlik) haqqında həkim heyəti tərəfindən müvafiq yazılı rəy verilməlidir.

**Maddə 4.19 KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ (KİV) ÜÇÜN YARADILAN ŞƏRAİT**

AGF rəhbərliyi ilə razılaşdırıldıqdan sonra, Yerli KİV ilə əməkdaşlıq üçün AGF-nin mətbuat katibi və / və ya Əlaqələndirici Şəxs təyin olunur. Bu şəxslər KİV nümayəndələrini effektiv və kifayət qədər əlverişli şəraitlə təmin edir.

**Maddə 4.20 YARIŞ MEYDANÇASINA DAXİL OLMA**

Lazım olduğu halda, BGF-nin Akkreditasiya Qaydalarına uyğun olaraq, müxtəlif hakimlər briqadalarının üzvləri, yarışın iştirakçıları və onların rəsmi məşqçiləri, gimnastları xalçaya ötürən şəxslər, hakimlər briqadasının xidməti heyəti, həkim heyəti, alətlərin yoxlanmasına cavabdeh şəxslər Yarış meydançasına daxil ola bilər. Hər bir İKC üzrə məşqçilərin sayı yarış meydançasında olan gimnastların sayından çox olmamalıdır və hər bir İKC-dən məşqçinin sayı yarış meydançasında 2 nəfərdən çox olmamalıdır.

Digər şəxslərə isə Yarış Meydançasına daxil olmaq qəti qadağandır.

**Qeyd:** Məşqçilər Yarış meydançasına daxil olma hüququ əldə etmək üçün AGF-nin etibarlı məşqçi vəsiqəsinə sahib olmalıdır.

**Maddə 4.21 YARIŞ ZALI**

Yarış zalında yarış zamanı şəkil çəkərkən foto işartıdan (flash) istifadə etmək, həmçinin rəsmi razılıq olmadan kommersiya məqsədli video çəkilişlər aparmaq qadağandır.

Arenanın ərazisində təhlükəsizliyin təmini və yarışların nizamlı keçməsi üçün mühafizə xidməti əməkdaşlarının xahiş və tələblərinə, o cümlədən elanlarda verilən məlumatlara əməl edilməlidir.

**Maddə 4.22 TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ**

YTK rəsmi AGF yarışları zamanı müvafiq idman cəmiyyətlərinin nümayəndə heyətlərinin (o cümlədən yarış iştirakçıları, məşqçi, hakim, rəsmi şəxslər və yarışa cəlb olunmuş digər şəxslərin) təhlükəsizliyini təmin etməlidir.
YTK hər hansı bir tamaşaçının yarış meydançası və yarışlara aid əməliyyat sahələrinə daxil olmamasını təmin etmək üçün bütün lazımi tədbirləri görməlidir.

**Maddə 4.23 SƏNƏDLƏRİN TOPLANILMASI**

YTK digər məlumatlarla yanaşı hər bir İKC-dən yarışdan əvvəl (AGF-də akkreditasiya vaxtı) və ya hazırkı TR-də müvafiq gimnastika növü üzrə müvafiq ilin MYP-sinə əsasən müəyyən olunmuş vaxtda aşağıdakı məlumatı əldə etməlidir:

- Final mərhələlərində iştirakdan imtina (lazım olduqda)
- İdman gimnastikasında Alətlərin qaldırılmasına icazə (podium məşqlərinin başlanmasından 24 saat əvvəl)

Bu sənədlər tələb olunan müddətdə YTK-ya təqdim olunmalıdır.

**Maddə 5 GİMNASTLAR VƏ GİMNASTLARA NƏZARƏT**

**Maddə 5.1 YARIŞLARDA ƏSAS İŞTİRAK ETMƏ HÜQUQLARI VƏ LİSENZİYA**

Rəsmi AGF yarışlarında

- Azərbaycan Respublikasının ərazisində qeydiyyatdan keçmiş və AGF-nin Nizamnaməsinin tələblərinə hörmətlə yanaşan İKC-ləri təmsil edən;
- Azərbaycan Respublikasının vətəndaşı olan (**Qeyd:** Azərbaycan Respublikası vətəndaşlığı olmayan şəxslər ölkədə qanuni yaşadıqlarını təsdiq edən sənəd təqdim etməlidirlər);
- Yarışda iştirak etmək üçün zəruri ilkin şərtlərə riayət edən və təmsil etdikləri İKC-lər tərəfindən yarışların katibliyinə vaxtlı-vaxtında sifarişlər göndərən;
- AGF-nin etibarlı gimnast pasportuna (lisenziya) malik (müvafiq yarış ilində yeddi (7) yaşı tamam olmuş və ya olacaq) və İK tərəfindən verilən qərarlar və işlənib hazırlanmış qaydalara əməl edən (daha ətraflı bax: AGF İctimai Birliyinin Gimnastların Lisenziyası üzrə Qaydaları);
- Müvafiq gimnastika növü və yaş qrupları üzrə müvafiq ilin MYP-sində qeyd olunan tələblərə cavab verən İKC-ləri təmsil edən gimnastlar üçün açıqdır.

**Maddə 5.2 İŞTİRAKÇILARIN YAŞI**

AGF-nin böyüklər yaş kateqoriyası üçün nəzərdə tutulmuş yarışlarında iştirakçıların müvafiq yarışın keçirildiyi ildə yaşı ən azı aşağıdakı kimi olmalıdır:

| | |
|---|---|
| Kişi idman gimnastikası | |
| Böyüklər | 18 yaş |
| Gənclər | 14-17 yaş |
| Yeniyetmələr | 12-13 yaş |
| Uşaqlar | 10-11 yaş |
| Balacalar | 8-9 yaş |
| Kiçiklər | 7 yaş |
| Qadın idman gimnastikası | |
| Böyüklər | 16 yaş |
| Gənclər | 13-15 yaş |
| Yeniyetmələr | 11-12 yaş |
| Uşaqlar | 9-10 yaş |
| Balacalar | 7-8 yaş |
| Bədii Gimnastika | |
| Böyüklər | 16 yaş |
| Gənclər | 13-15 yaş |
| Yeniyetmələr | 11-12 yaş |
| Balacalar | 8-10 yaş |
| Batut Gimnastikası və tamblinq | |
| Böyüklər | 17 yaş |
| Gənclər | 13-16 yaş |
| Yeniyetmələr | 11-12 yaş |
| Uşaqlar | 8-10 yaş |
| Balacalar | 7 yaş |

Akrobatika Gimnastikası

| | |
|---|---|
| Böyüklər | 15 yaş |
| Gənclər | 13-19 yaş |
| Yeniyetmələr | 12-18 yaş |
| Uşaqlar | 11-16 yaş |
| Balacalar | 6-15 yaş |

Aerobika Gimnastikası

| | |
|---|---|
| Böyüklər | 18 yaş |
| Gənclər | 15-17 yaş |
| Yeniyetmələr | 12-14 yaş |
| Uşaqlar | 9-11 yaş |
| Balacalar | 7-8 yaş |

**Bütün gimnastika növləri üçün qeyd:**
Böyüklər yaş qrupuna aid gimnastlar yalnız Azərbaycan Çempionatında iştirak etməlidirlər.
Azərbaycan Çempionatında, Azərbaycan Birnciliklərində (Şəhər Çempionatı və Birinciliklərində) böyüklər arasında iştirak etmiş gimnastlar sonra yenidən gənclər arasında keçirilən yarışlarda iştirak edə bilməzlər. Akrobatika gimnastikası istisna olaraq BGF-nin qaydalarına əsasən böyüklərin yarışlarında çıxış etmiş gimnast yalnız sonradan yeni yaranmış çütlük və ya qrupun tərkibində aşağı yaş qrupunda iştirak etmək hüququna malikdir.

**Maddə 5.3 MƏŞQÇİLƏRİN GİMNASTLARI MÜŞAYİƏT ETMƏSİ**

Məşqçilər AGF-nin rəsmi yarışlarına məşqçi qismində qeydiyyatdan keçmək və gimnastı yarış meydançasına müşayiət hüququ əldə etmək üçün hər bir Olimpiya dövründə gimnastika növləri üzrə AGF tərəfindən təşkil olunan və ADBTİA-nın keçirdiyi birgə məşqçilik və hakimlik kurslarını müvəffəqiyyətlə bitirdiyini təsdiq edən AGF-nin etibarlı məşqçi vəsiqəsini təqdim etməlidir. Məşqçilik vəsiqəsi olmayan şəxslərin məşqçi kimi fəaliyyəti federasiya tərəfindən tanınmadığına görə onlar AGF tərəfindən keçirilən və tanınan milli yarışlar zamanı gimnastları məşq/isinmə zalında və yarış meydançasında məşqçi kimi müşayiət edə bilməzlər.

**Maddə 5.4 DAVRANIŞA AİD ÜMUMİ QAYDALAR**

Yarışlarda gimnastlar tərəfindən nalayiq davranışa, insan ləyaqətini alçaldan hərəkətə və təhqirə yol verildikdə, yarış iştirakçısı özünü idmançıya layiq olmayan tərzdə apardıqda və ya onun tərəfindən digər yarış iştirakçısına qarşı irqi, cinsi, dini, etnik və s. zəmində ayrı-seçkilik nümayiş olunduqda, o cümlədən AGF Nizamnaməsinin müddəaları və BGF-nin anti-dopinq qaydaları pozulduğu halda bu məsələyə İntizam Komissiyasında baxıla və həmin davranışa uyğun olaraq cəza tətbiq oluna bilər.
BGF-nin müvafiq gimnastika növünə aid Qaydaları yarışların rəvan keçməsinə və yarışa nəzarət edilməsinə dair digər məsələləri də ehtiva edir.
İcazə verilmədən yarış meydançasına təkrar qayıdış və ya podiumda həddən artıq şadyanalıq nümayiş etdirmək qadağandır.
Bütün yarış ərzində, gimnast, hakim və məşqçilərə mobil telefondan və digər elektron rabitə vasitələrindən istifadə etmək qəti qadağandır.

## Maddə 5.5 YARIŞ MEYDANÇASINA GİRİŞ VƏ ÇIXIŞ

### Yarış məkanından icazəsiz çıxma və tətbiq olunan sanksiyalar

Əgər bir gimnast, qrup və ya komanda yarışı tərk edir və bu yarışın rəsmi həkimindən tibbi arayış təqdim etmək iqtidarında olmursa, bu gimnast, qrup və ya komanda yarışdan kənarlaşdırılır və onun yarışda iştirakını davam etdirməsinə icazə verilmir. Onların bu ana qədər topladığı xallar hesablanacaq və reytinq siyahısında müvafiq olaraq öz yerini tapacaqdır. Yarış məkanından icazəsiz çıxma və tətbiq olunan sanksiyalar gimnastika növlərindən asılı olaraq, AGF-nin İntizam Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

## Maddə 5.6 MƏŞQÇİLƏRİN KÖMƏYİ

Hərəkətlərin yerinə yetirilməsi zamanı məşqçilər tərəfindən göstərilən köməyə qoyulan məhdudiyyətlərə dair müddəalar təfərrüatı ilə BGF-nin müvafiq gimnastika növünə dair Qaydalarında izah olunur. Lakin, yarışların formatından asılı olaraq, BH və YD bu qaydalara müəyyən dəyişikliklər edə bilər.

## Maddə 5.7 BÜTÜN GİMNASTİKA NÖVLƏRİNDƏ YARIŞ GEYİMİ

Bütün gimnastika növləri üzrə yarış geyiminə dair qaydalar BGF-nın İcra Komitəsi tərəfindən təsdiq olunmuş "Reklam və Təşviqat Qaydalarının"-nın 3-cü Bölməsində izah olunur.

Bütün gimnastika növlərində təşviqat və sponsorun reklam olunması üçün xüsusi yerlərin ayrılmasına icazə verilir, lakin BGF-nin "Reklam və Təşviqat Qaydaları"na riayət olunmalıdır.

"Reklam və Təşviqat Qaydaları"na müvafiq olaraq, hansı İKC-yə mənsub olduğunu bildirən loqo və ya emblem bütün yarış iştirakçılarının geyimlərində nümayiş etdirilə bilər.

Hər hansı bir idman cəmiyyətinə mənsub olduğunu bildirən loqo və ya emblemin qeyri-düzgün ölçüləri və ya yerləşdirilməsi ilə bağıl yol verilən diqqətsizliyə görə cərimələr BGF-nin müvafiq gimnastika növləri üzrə Qaydalarında öz əksini tapmış və BH tərəfindən tətbiq olunur.

## Maddə 6 ANTİ-DOPİNQ MÜBARİZƏSİ

Dopinq bütün formalarında qadağandır.
Qadağan olunmuş maddələrin siyahısı mütəmadi olaraq WADA (Dünya Anti-dopinq Agentliyi) tərəfindən yenilənir və dərc olunur.
BGF-nin İcra Komitəsi tərəfindən Dünya Anti-dopinq Məcəllesi və müvafiq prosedurlara istinad olunaraq hazırlanmış Anti-Dopinqə dair müddəalar BGF-nin Anti-dopinq qaydalarında öz əksini tapmışdır.
İdmançılar, məşqçilər, tibbi heyət və idmançılarla çalışan digər şəxslərin BGF-nin Dopinq Nəzarətinə dair tələblərinə, "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu və AMADA-nın Dopinq Nəzarətinə dair tələblərinə riayət etməsi yarışa qeydiyyatdan keçmənin bir şərtidir.

AGF-nin İcra Komitəsinin 27.12.2021-ci il tarixli qərarı ilə GİN, AMADA ilə əvəz olunmuşdur.

## Maddə 7 HAKİMLƏR VƏ YARIŞLARDA HAKİMLİK

### Maddə 7.1 ÜMUMİ PRİNSİPLƏR

Gimnastika yarışlarında bütün çıxışlar bu funksiyanı həyata keçirmək üçün zəruri ixtisasa malik olan hakimlər tərəfindən qiymətləndirilməlidir. Onlar gimnastlar tərəfindən icra edilən hərəkətləri hazırkı TR-nin 7.2-ci Maddəsində göstərilən Qaydalara əsasən düzgün qiymətləndirməlidilər.

### Maddə 7.2 HAKİMLİYƏ ƏSAS: BGF-NİN MÜVAFİQ GİMNASTİKA NÖVLƏRİ ÜZRƏ QAYDALARI

Əlavələr də daxil olmaqla, BGF-nin müvafiq gimnastika növləri üzrə Qaydaları və müvafiq ilin MYP-si, hakimliyin əsasını təşkil edir.

### Maddə 7.3 AGF-nin RƏSMİ YARIŞLARINDA HAKİMLİK ETMƏK HÜQUQUNUN ƏLDƏ OLUNMASI - KATEQORİYALAR

AGF-nin rəsmi yarışlarında məşqçi kimi gimnastı müşayiət etmək və aşağıda Maddə 7.8-də qeyd olunan hakimlik fəaliyyəti ilə məşğul olmaq üçün AGF-nin qüvvədə olan müvafiq məşqçilik və hakimlik kateqoriyalarına malik olmaq zəruridir.
Müvafiq gimnastika növləri üzrə hər bir Olimpiya dövründə AGF-nin təşkil etdiyi və ADBTİA-nın keçirdiyi birgə məşqçilik və hakimlik kurslarında imtahan nəticələrinə əsasən hakimlər müəyyən olunur. Müvafiq gimnastika növləri üzrə hakimlərin lazımi sayı mövcud olmadığı halda, BH, TD və BK razılığı ilə hakimlər briqadalarının sayına dəyişiklik etmək hüququna malikdir və lazım olduqda, BH özü də çıxışları qiymətləndirə bilər.

### Maddə 7.4 AGF-NİN HAKİMLİK KATEQORİYASINI ALMAQ MƏQSƏDİLƏ TƏLİM VƏ İMTAHAN

Olimpiya Oyunlarından sonrakı ildə başlayan dörd (4) illik Olimpiya dövrü mövcüddur. Beynəlxalq standartlara müvafiq olaraq, hər bir yeni Olimpiya dövrünün ilk ilində, AGF ADBTİA ilə birlikdə yerli mütəxəssilər üçün birgə məşqçilik və hakimlik kursları keçirməyə başlayır. Yerli kursların proqramı BGF-nin gimnastika növləri üzrə Qaydalarına əsaslanaraq, milli tələblərə cavab vermək məqsədilə BM-nin tövsiyələrinə uyğun tənzimlənir. AGF tərəfindən təşkil olunmuş kursların sonunda, müxtəlif kateqoriyalar verilə və ya bundan əvvəl verilmiş dərəcələr təsdiq oluna bilər. Kursların sonunda imtahanda müvəffəqiyyət qazanmış mütəxəssislərə ADBTİA-nın verəcəyi sertifikat əsasında AGF-nin hakimlik vəsiqəsi təqdim olunur. Hakimlik vəsiqəsinə malik olmayan şəxslər bu yarışlarda müvafiq olaraq hakim kimi iştirak edə bilməz.

Qeyd: beynəlxalq hakimlik dərəcəsinə malik hakimlər istisna təşkil edir, belə ki, onların yerli hakimlik dərəcəsi almalarına ehtiyac yoxdur.

### Maddə 7.5 KATEQORİYANIN ETİBARLILIĞI

Hər hansı bir məşqçi və hakim öz adının AGF tərəfindən tanınan məşqçi və hakimlərin məlumat bazasında qalmasını istəyirsə, o, yeni dövrdə keçirilən kurslarda iştirak etməli və imtahandan müvəffəqiyyətlə keçməlidir.

**Maddə 7.6 MİLLİ MƏŞQÇİ VƏ HAKİMLİK KATEQORİYASI OLAN MÜTƏXƏSSİSLƏRİN QEYDİYYATI**

Müəyyən kateqoriya əldə etmiş məşqçi və hakimlər yarışların katibliyində qeydiyyatdan keçməlidirlər.

**Maddə 7.7 AGF-NİN RƏSMİ YARIŞLARINDA HAKİMLƏR BRİQADALARININ TƏŞKİLİ VƏ ONLARIN ÖHDƏLİKLƏRİ**

AGF-nin rəsmi yarışlarında hakimlik aşağıda göstərilən hakimlər tərəfindən həyata keçirilir:

**Maddə 7.7.1 BAŞ HAKİM**

BH-nin fəaliyyəti aşağıdakılardan ibarətdir:

1. Yarışa nəzarət etmək və yarışın gedişatına təsir göstərən hər hansı bir nizam-intizam qaydalarının pozulması və ya fövqəladə hallara müdaxilə etmək.
2. Bir və ya bir neçə hakim tərəfindən ciddi səhvə yol verildikdə, zəruri hesab etdiyi zaman tədbir görmək.
3. Daima hakimlərin verdiyi xalları nəzərdən keçirmək və gördüyü iş qənaətbəxş olmayan və ya qərəzli hesab olunan hakimə xəbərdarlıq etmək.
4. Hər hansı bir xəbərdarlıq nəticəsiz qaldıqda, hər hansı bir hakim heyətini yarışdan kənarlaşdırmaq və yenisi ilə əvəz etmək.
5. Yarışlardan əvvəl hakimlər üçün keçirilən iclası idarə etmək.
6. Müxtəlif yarışlar və müxtəlif alətlərlə çıxışların dəyərləndirilməsi üçün hakimlərin seçilməsi məqsədilə keçirilən püşk atmaya nəzarət etmək.
7. Ehtiyac yarandığı halda, BK-nın razılığı ilə hakimlər təyin etmək.
8. Hakimlər heyəti, məşqçi, gimnast və rəsmi şəxslərin davranışına aid bütün tələblərin yerinə yetirilməsini təmin etmək.

**Maddə 7.8 HAKİMLƏRİN SEÇİLMƏSİ, TƏYİN OLUNMASI, PÜŞK ATMA QAYDASI**

Hakimlərin sayı kifayət qədər olmadıqda, lazımi sayda hakimlərin təyin olunması üçün hansı prosesdən istifadə olunacağı haqda qərar BK-nın razılığı ilə BH tərəfindən verilir.

Lazım olduqda AGF-nin rəsmi yarışlarının dəyərləndirilməsi üçün neytral hakimlər cəlb oluna bilər.

**Maddə 7.9 AGF-NİN RƏSMİ YARIŞLARINDAN ƏVVƏL HAKİMLƏRİN TƏLİMATLANDIRILMASI**

AGF-nin rəsmi yarışlarında, turnirin BH-nin rəhbərliyi altında məlumat xarakterli iclas təşkil olunur. Başlıca məqsəd, müvafiq gimnastika növü üzrə Qaydaların və dəyərləndirmə cədvəllərinin dəqiq və eyni formada şərhinin təmin olunmasından ibarətdir.
Hakimlərdən bu iclasda və sonrakı brifinqlərdə iştirak etmək tələb olunur. Əks halda, onlara hakimlik etməyə icazə verilmir.

Həmin iclaslar zamanı BH, hakimlərin biliyini yoxlamaq və kifayət qədər səriştəsi olmayan hakimlər müəyyən olunduqda, onları yarışlardan kənarlaşdırmaq hüququna malikdir.

### Maddə 7.10 HAKİMLƏRİN DAVRANIŞI VƏ XÜSUSİ TƏLƏBLƏR

Hakimlər briqadaları üzvlərindən BGF-nin gimnastikanın ayrı-ayrı növləri üzrə Qaydaları, hazırkı TR və müəyyən yarışa aid olan göstərişlərlə tanış olmaları tələb olunur.

Onlar müəyyən geyim tərzi, oturacaqların yerləşdirilməsi, davranışa aid təlimatlara və gimnastikanın ayrı-ayrı növləri üzrə Qaydalarda nəzərdə tutulan digər intizam və təşkilati məsələlərə ciddi surətdə əməl etməlidirlər.

### Maddə 7.11 AGF TƏRƏFİNDƏN TƏŞKİL OLUNMAYAN YARIŞLARDA MÜDDƏALARIN HAKİMLİYƏ UYĞUNLAŞDIRILMASI

### Maddə 7.11.1 ÜMUMİ QEYDLƏR

Şəhər Çempionatları və Birincilikləri, İKC-lər arasında keçirilən Açıq yarışlar aşağıdakı dəyişikliklər istisna olmaqla, hakimliyin təşkil olunmasına aid yuxarıda qeyd olunan müddəalara əməl etməlidir.

### Maddə 7.11.1.1 HAKİMLƏR

Hakimlər öncəki maddələrdə qeyd olunan tələblərə əməl etməlidirlər.

### Maddə 7.11.1.2 HAKİMLƏR ÜÇÜN TƏŞKİL OLUNAN TƏLİMATLANDIRICI İCLASLARA DAİR TƏLİMAT

Şəhər Çempionatı və Birinciliyi, İKC-lər arasında Açıq yarışlar və bu kimi yarışlardan əvvəl keçirilən təlimatlandırıcı iclaslar, hakimlərin tədrisinin bir hissəsini təşkil edir. Onlar, BH və ya onun təyin etdiyi şəxslər tərəfindən aparılır və yarışda hakimliyə cəlb olunmuş bütün mütəxəssislərdən burada iştirak etmək tələb olunur.

Yarışın mahiyyəti və keçirilmə şəraiti nəzərə alınmaqla, gimnastikanın ayrı-ayrı növləri üzrə Qaydalarına əsaslanaraq, çıxışın qiymətləndirilməsinə dair müzakirələr aparılır, müxtəlif alətlərlə bağlı suallara aydınlıq gətirilir və yarışın təşkili və keçirilməsinə aid məsələlər nəzərdən keçirilir.

## Maddə 8 XALLARIN HESABLANMASI

### Maddə 8.1 XALLARIN MÜƏYYƏN OLUNMA ÜSULLARI

Xalların müəyyən olunması və çıxışların qiymətləndirilməsi üsulu BGF-nin gimnastikanın ayrı-ayrı növləri üzrə müvafiq Qaydalarında izah olunur.

### Maddə 8.2 YARIŞ NƏTİCƏLƏRİNİN PROTOKOLLARI

Hər bir alət üzrə bir forma və bir yekun formadan ibarət nəticə protokolları yarışların Baş katibi, yarış haqqında hesabat isə BH tərəfindən AGF-nin ofisinə göndərilir.

Hər bir hakimin adı və verdiyi xalların təfsilatı qeyd olunmaqla bütün yarış mərhələlərinin nəticələri, BH tərəfindən yarışdan sonra üç (3) gün ərzində AGF-nin ofisinə göndərilməlidir. Yarış nəticələrinin protokolları BH tərəfindən imzalanmalıdır.
Yarışların ümumi nəticələri AGF-nin rəsmi internet səhifəsində dərc olunur.

### Maddə 8.3 XALLARIN ETİBARLILIĞI

Xallar BH tərəfindən təsdiq olunduğu andan etibarlı hesab olunur.

### Maddə 8.4 ETİBARSIZ NƏTİCƏ İŞARƏLƏRİ

Etibarsız nəticələr haqqında məlumat vermək üçün bəzi xüsusi işarələrdən istifadə olunur.

| | |
|---|---|
| DNS | "Başlamadı" (ingilis dilində "Did not start" sözlərindən götürülmüşdür) işarəsi gimnastın çıxışa başlamaması və / və ya cəhd etməməsini göstərir. Əgər onlar özlərini hakimə təqdim edir və heç bir hərəkət nümayiş etdirmirlərsə, bu zaman gimnasta heç bir xal verilmir və DNS işarəsi qeyd olunur. |
| DNF | "Bitirmədi" (ingilis dilində "Did not finish" sözlərindən götürülmüşdür) işarəsi gimnastın çıxışına başlaması, lakin hakimlər tərəfindən xalın verilməsi üçün yetərli hərəkət nümayiş etdirmədiyini göstərir. Bu, həmçinin onu bildirir ki, gimnast yarışın hər hansı bir mərhələsində çıxışına başladıqdan sonra onu bitirməmişdir (məs. əgər gimnast zədə səbəbindən çoxnövçülük finalında iki (2) alətdə çıxışından sonra dayanırsa). |
| "0" | Sıfır xal qayda pozuntularına görə hakimlər tərəfindən verilmiş xaldır. |
| DSQ | "Xaric edilmə" (ingilis dilində "Disqualified" sözündən götürülmüşdür) qaydaların ciddi texniki pozuntusuna görə Yarışların Direktorunun qərarı və BK-nin təsdiqi əsasında verilən işarədir. "Xaric edilmə", həmçinin müsbət dopinq nəticələrinə görə verilən işarədir. |

Müəyyən hallarda DNS və DNF aşağıdakılarla nəticələnir:
- sözügedən alət üzrə digər mərhələlərə (əgər varsa) keçməmək;

DSQ BGF-nin gimnastikanın ayrı-ayrı növləri üzrə Qaydalarında və hazırkı TR-nin Maddə 5.4-nə müvafiq olaraq, aşağıdakılarla nəticələnir:
- nəticələr ləğv olunur və yarışın həmin mərhələsindən çıxarılır;
- gimnastın adı yarışın həmin mərhələsindən çıxarılır;
- yarışın həmin mərhələsi üzrə reytinq siyahısı gimnastlar üçün yenidən hesablanır;
- komandalar arasında yarış zamanı xaric edilən fərdi gimnastın adı komandadan çıxarılır;
- bu komandanın nəticələri və reytinq siyahısında tutduğu yer yenidən hesablanır.

## Maddə 9 PROTOKOL

### Maddə 9.1 ÜMUMİ MÜŞAHİDƏLƏR

Azərbaycan Çempionatı, Azərbaycan Birinciliyi və digər turnirlərin rəsmi açılış, bağlanış və mükafatlandırma mərasimləri üzrə cavabdeh şəxs BK tərəfindən təyin olunur.

Azərbaycan Respublikasının Dövlət Bayrağı, AGF-nin və GİN-in bayrağı yarış zalında asılmalıdır.

Azərbaycan Çempionatı, Azərbaycan Birinciliyi və digər turnirlərin rəsmi açılış və bağlanış mərasimlərində Azərbaycan Respublikasının Dövlət Himni səslənməlidir.

## Maddə 10 MÜKAFATLAR

### Maddə 10.1 MEDAL VƏ DİPLOMLARIN DİZAYNI

Azərbaycan Çempionatı və Birinciliklərində diplomlar GİN tərəfindən verilir. Medalların dizaynı BK tərəfindən təsdiq olunur. AGF-nin keçirdiyi digər yarışlar zamanı diplom və medallar YTK tərəfindən hazırlanır.

### Maddə 10.2 MÜKAFATLANDIRMA MƏRASİMİNƏ AYIRILMIŞ VAXT

YTK bu mərasimlərin operativ şəkildə keçirilməsinə görə məsuliyyət daşıyır.

**Maddə 10.3 AZƏRBAYCAN ÇEMPİONATLARI / BİRİNCİLİKLƏRİNİN MÜKAFATLARI**

Yarışların formatından asılı olaraq ilk üç (3) yeri tutmuş gimnastlara diplom və medallar verilir.

Əsassız səbəbə görə mərasimdə iştirak etməyən gimnast və ya komandanın nəticələri ləğv olunur. Bu zaman siyahıdakı növbəti gimnast və ya komanda mükafatlandırılır.

Azərbaycan Çempionatı və Birinciliklərində, habelə AGF-nin keçirdiyi digər yarışlarda idmançıların sayı 4-dən aşağı olduqda, əlaqədar kateqoriya üzrə heç bir medal və diplom verilmir.

**Maddə 10.4 GEYİM**

Açılış və bağlanış, həmçinin mükafatlandırma mərasimlərində, bütün gimnastlar müvafiq İKC-nin idman geyimlərində olmalıdırlar.

Bu qaydaya əməl olunmadıqda, müvafiq idmançı və İKC AGF-nin İntizam Komissiyası tərəfindən cəzalanacaqdır.

**Maddə 11 YARIŞ AVADANLIĞI VƏ KÖMƏKÇİ QURĞULAR**

Azərbaycan Çempionatı və Birincilikləri, həmçinin AGF-nin keçirdiyi digər yarışlardan əvvəl idman avadanlıqları BH-nin təyin etdiyi Texniki mütəxəssis tərəfindən yoxlanılmalıdır.

**Maddə 11.1 KÖMƏKÇİ QURĞULAR**

Yarışların rəvan keçirilməsi üçün xronometr, xalların hesablanması üçün elektron cihaz kimi müxtəlif köməkçi qurğulardan istifadə oluna bilər.

**Maddə 12 MALİYYƏ ŞƏRTLƏRİ**

**Maddə 12.1 AGF-NİN RƏSMİ YARIŞLARI**

AGF-nin rəsmi yarışlarının xərci yarışların növündən asılı olaraq AGF, GİN tərəfindən çəkilir.

Ehtiyac yarandığı halda, AGF təşkil etdiyi yarışlarda iştirakçı haqqı tətbiq edə bilər.

İdman Cəmiyyətinin və ya nümayəndələrinin xərcləri (yol və tam ezamiyyət xərcləri) müvafiq cəmiyyət tərəfindən ödənilir.

**Maddə 12.2 ŞƏHƏR ÇEMPİONATLARI VƏ BİRİNCİLİKLƏRİ**

Bunlar müvafiq şəhər təşkilatlarının qəbul etdiyi və ya təşkilatçı qurumlar arasında razılaşdırılan qaydalara uyğunlaşdırılır.

**Maddə 12.3 DOPİNQ TESTLƏRİ**

Lazım olduqda anti-dopinq test və analizlərə aid xərclər, YTK tərəfindən qarşılanır.

**Maddə 13 YEKUN MÜDDƏALAR**

Hazırkı Texniki Reqlamentdə nəzərdə tutulmayan hallarda,

- iri-miqyaslı tədbirlər zamanı gözlənilməz problemlər meydana gəldikdə,
- hazırkı Reqlamentin müddəalarında onlar nəzərdə tutulmadıqda,
- dərhal qərar qəbul olunması zəruri olduqda,

AGF-nin Nizamnaməsi tətbiq olunur. Hazırkı maddədə nəzərdə tutulmuş hallarda Müvafiq YTK məsuliyyəti öz üzərinə götürüb, məsələni həll etməlidir.

Hazırkı TR BGF-nin Texniki Reqlamentinin 2020-ci il nəşrinə, AGF Nizamnaməsinin 2011-ci il nəşrinə əsaslanır. Hazırkı TR 2020-ci ilin yanvar ayının 1-dən qüvvəyə minir.

**AZƏRBAYCAN GİMNASTİKA FEDERASİYASI**

Baş katib: Nurlana Məmmədzadə

Texniki direktor: Natalya Bulanova